## *Hörmətli redaksiya!*

**Bu il oktyabr ayının ilk günlərində Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsinin yaranmasının 45 ili tamam olur.**

**1978-ci ilin oktyabr ayında tanınmış yazıçı Məmmədhüseyn Əliyevin məsul katibliyi ilə yaradılan Azərbaycan Yazıçılar İttifaqının Lənkəran Zona Şöbəsi ətrafında barmaqla sayıla biləcək yazıçı və şairləri birləşdirirdi. Sonradan Bölmə statusunda fəaliyyət göstərən bu təşkilat bu günə kimi bölgədə yaşayan istedadlı yazarları öz ətrafında birləşdirməyə, onların inkişaf edib tanınmalarına, bütöv Azərbaycan Ədəbiyyatının bir parçası olaraq bölgədə ədəbi mühiti canlandırmağa və inkişaf etdirməyə çalışıb.**

**Vaxtilə tanınmış şairlər Şəkər Aslan və İltifat Salehin rəhbəri olduğu Bölmənin köynəyindən çıxan onlarla şair və yazıçılar sonralar Azərbaycan və keçmiş İttifaq ədəbi mühitində tanındılar.**

**AYB Lənkəran Bölməsi bu gün də bölgədə ədəbi mühitin yüksəlməsi üçün var-gücü ilə çalışır. Hazırda Azərbaycan Yazıçılar Birliyi Lənkəran Bölməsi ətrafında yüzdən artıq üzvü sıx birləşərək ədəbiyyatımızın inkişafına xidmət edirlər.**

## *Hörmətli redaksiya!*

**"Azad Azərbaycan " qəzeti bölgədə yaşayıb-yaradan yazıçı və şairlərin yaradıcılığına həmişə diqqətlə yanaşır, onların mütəmadi olaraq qəzetdə çap olunmasına xüsusi diqqət və qayğı göstərir. Ümumən, qəzet ədəbiyyatımızın inkişafında və tanınmasında müstəsna rol oynayır. Buna görə Bölgə yazarları adından qəzetin redaktoru, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğluna və qəzetin bütün kollektivinə minnətdarlığımı bildirirəm.**

**Yubiley tədbirlərinin yer aldığı bu günlərdə Bölmənin ətrafında birləşən rayonlarda yaşayan yazarların əsərlərini davamlı olaraq Sizə göndərməklə qəzetdə çap olunmasını arzu edirik. Ümidvaram ki, sevincimizə şərik çıxıb bu arzumuzu nəzərə alarsınız. İlk olaraq Lənkəranda yaşayan bir qrup yazarın əsərlərini Sizə təqdim edirəm.**



**Qabaqcadan təşəkkür edui-rəm.**

**Hörmətlə, Qafar CƏFƏRLİ,**
**AYB Lənkəran Bölməsinin sədri,**
**yazıçı-publisist**



## *Ağamir CAVAD*

# GƏLƏRƏM

Sinəmin başından yol eyləyərəm,
Dağları, daşları yorub gələrəm.
Ömrün günlərindən ocaq qalayıb,
Bir sevgi odası qurub gələrəm.

Haqqın dərgahından ün gözləyirəm,
Eşq adlı müqəddəs din gözləyirəm.
Bir sevda soraqlı gün gözləyirəm,
Nə zaman çağırsın, durub gələrəm.

Qarşında bir məsum haqq uşağı var,
Eşqinə yol gələn haqq aşığı var.
Üzümdə qəlbimin haqq işığı var,
Nurumla zülməti yarıb gələrəm.

Zamanın bətnindən qor çıxardaram,
Zülmətin bağrından nur çıxardaram.
Dəryalar dibindən dürr çıxardaram,
Dünyanın sirrinə varıb gələrəm.

Eşqimlə yandırdım haqq çırağını,
Gözlədim taleyin tülu çağını.
Aşıb keçmək üçün hicran dağını
Səbrimi dişimə vurub gələrəm.

Soruşma dünyadan, nədir bu matəm,
Tarixiəzəldənqanlatutub dəm.
Yarasın duzlayan Məlikməmmədəm,
Divlərin dərsini verib gələrəm.

Min günah işlədib xətalanmışam,
Dərddə bərkiməkçün oda yanmışam.
Vəhdət şərabıyla butalanmışam,
Həsrət zəncirini qırıb gələrəm.

Xəyalım göyləri qoruq eyləyər,
Hər axşam günəştək qürub eyləyər.
Ayrılıq doğmanı qərib eyləyər,
Doğma qucağına qərib gələrəm.

Sevirik hər doğan günün xətrinə,
İmanın xətrinə, dinin xətrinə.
Günah eyləyərəm sənin xətrinə,
Cənnət meyvəsini dərib gələrəm.

Bir vəhdət eşqiylə döyünür ürək,
Sevgi nuru ilə hökm edir fələk.
Zülməti dağıdan işıq selitək
Eşqimi yollara sərib gələrəm.

Dağəm, ayrı salma ahını məndən,
Gülüm əsirgəmə şehini məndən.
Gizlədə bilməzsən ruhunu məndən,
Yerini göylərdən sorub gələrəm.

Qala ürəyində haqq ocağını,
Qoy alaq basmasın ömrün bağını.
Vüsal əkmək üçün eşq torpağını
Şumlayıb gələrəm, sürüb gələrəm.

Yolunu tutmasın həsrətin çəni,
Ara taleyinə bir vəhdət günü.
Eşqinə çalmağa vüsal zəngini,
Zamanın qulağın burub gələrəm.

Demə, nə eyləyib ozgə eyləyib,
Bəxtini oxşayıb düzgü eyləyib.
Ayı gün üzünə güzgü eyləyib,
Günəşin saçını hörüb gələrəm.

Neçə eşq karvanı yanımdan ötüb,
Söz-söz böyüyərək olmuşam ədib.
Sənə qovuşmaqçün elçilik edib
Tanrınınözünügörübgələrəm.

# MƏNƏ CAVAB KİM VERƏCƏK

Şimşəktək çaxıb getmişəm,
Yağıştək yağıb getmişəm.
Özümdən çıxıb getmişəm,
Qaytar mənə məni, Allah.

Duz yüküdür ömrün yükü,
Ah varmıdır ahım təki?
Dağam, dağıt üstümdəki
Bu dumanı, çəni, Allah.

Arzularım solan çiçək,
Əzablara dözmür ürək.
Mənə cavab kim verəcək
Qiyamətingünü, Allah?

# İNSAN

Qürurundan ad alıbdır,
Sevgisindən dad alıbdır.
Haqq odundan od alıbdır,
Saf işıqdır, nurdur insan.

Həm ağıldır, həm ürəkdir,
Böyüklükdə o da təkdir.
Ha qandal vur, dara çəkdir,
Qəlbi azad, hürdür insan.

Göydən gələn Tanrı səsi,
Süd qoxusu, od nəfəsi...
Haqqın sehri,möcüzəsi,
Tapmacadır, sirdir insan.

Min sirr yazan izi nədir,
Ocağı nə, közü nədir?
Ən zəngin bir xəzinədir,
İnci, sədəf, dürdür insan.

Eşqi ilə alır nəfəs,
Ona nisbət yoxdur əvəz.
Haqdan gələn İlahi səs,
Nəğmə, nəva, şurdur insan.

Qürub çağı, dan yeridir,
Ruh yeridir, can yeridir.
Yerin, göyün and yeridir,
Müqəddəsdir, pirdir insan.

Odur son da, odur ilk də,
Məcnunluq da, kamillik də.
Böyüklükdə, alilikdə
Birdir Allah, Birdir İnsan.

Azad Azərbaycan.- 2023- cü il.- 5 oktyabr.- S. 6.- № 32.